**UOT 82; 82-1**

# BƏDİİ NƏSRDƏ İNSAN VƏ CƏMİYYƏT PROBLEMİ MƏNƏVİ-ƏXLAQİ AXTARIŞLAR MÜSTƏVİSİNDƏ

**X.Z.ƏFƏNDİYEVA**
***Bakı Dövlət Universiteti***
***elshenxeyale@box.az***

*Məqalədə çağdaş Azərbaycan nəsrinin görkəmli nümayəndəsi, Azərbaycan ədəbiyyatında ədəbi-bədii, fəlsəfi-estetik və milli düşüncənin formalaşmasında böyük xidmətləri olan istedadlı yazıçı Seyran Səxavətin yaradıcılığında geniş yer tutan mənəvi-əxlaqi problemlərdən bəhs olunur. Onun orijinal yazı üslubu, əsərlərində insan həyatının, düşüncəsinin köklü problemlərinə müraciət etməsi, yaradıcılığına məxsus dərin humanizm, realizm, psixoloji dərinlik daim ədəbi-elmi ictimaiyyətin və geniş oxucu auditoriyasının diqqət mərkəzində olmuşdur. Onun əsərləri insanları özünüdərkə, mənəvi-əxlaqi kamilliyə səsləyir.*

**Açar sözlər:** bədii yaradıcılıq, nəsr, roman, insan və cəmiyyət problemi, mənəvi-əxlaqi axtarışlar, humanizm

Çağdaş Azərbaycan nəsri zəngin Azərbaycan ədəbiyyatı və dünya ədəbiyyatının ən mütərəqqi ənənələri ilə formalaşıb inkişaf etmiş, fəal mənəvi qüvvəyə çevrilmişdir. Bu nəsrin güclü yaradıcıları var ki, əsərləri ölkə hüdudlarından kənarda da xüsusi diqqətə səbəb olmuşdur. Belə sənətkarlardan biri də Seyran Səxavətdir. O, çağdaş Azərbaycan ədəbiyyatında ədəbi-bədii, fəlsəfi-estetik və milli düşüncənin formalaşmasında əvəzsiz xidmətləri olan yazıçıdır. Əsərləri insan həyatının, məişətinin, düşüncəsinin köklü problemlərinə müraciət etməsi, dərin humanizmi, realizmi, fəlsəfi-psixoloji dərinliyi ilə çağdaş nəsr nümu-nələri arasında özünəməxsus yer tutur. Onun yaradıcılığı çoxjanrlı və çoxşaxəlidir. Seyran Səxavət şair, nasir, publisist və dramaturq kimi geniş auditoriyası olan bir sənətkardır. Nəsr onun yaradıcılığında xüsusi yer tutur.

Seyran Səxavətin bədii nəsrini müasir ədəbi tənqid daim diqqətlə izləmişdir. Onun nəsri nikbin ruhu, incə lirizmi, tragik momentləri komik situasiya ilə birləşdirmək imkanlarına görə müasir nəsrin ən yaxşı nümunələrindəndir. Müəllif bir çox hallarda, yumor və satira vasitələrindən ustalıqla istifadə edərək sosial-ictimai qüsurların komik yolla islahına çalışır, hadisə və xarakterlərin təbiətindəki komizmi, gülünclüyü, gülüş doğuran cəhətləri açıb göstərir.

Fikrin rəmzi-bədii ümumiləşdirmələrlə ifadəsi, məcazların məharətlə və yerli-yerində işlənməsi, hadisə və xarakterlərin bədii-psixoloji təhlili, ictimai və fərdi münasibətlərin möhkəm bağlılığı, sosial ziddiyyətlərin güclü bədii ifadəsi, təhkiyə və dialoqlarda yazıçının qələminin gücü, mövqeyinin aydınlığı, lirik və epik təsvirin komik və tragik hallarla ustalıqla əlaqələndirilməsi yazıçının üslubunun əsas keyfiyyətləridir. Seyran Səxavət hadisə və xarakterlərin bədii-psixoloji təhlilinə xüsusi diqqət yetirir, hər bir obrazın mənəvi dünyasını, psixoloji aləmini lazımi səviyyədə əks etdirmək üçün insanın xarakterindən, hadisələrin mahiyyətindən doğan təbii cizgilər tapır, obrazların nitqi ilə onların daxili aləmini, arzu və istəklərini, məhəbbət və nifrətini, mənfi və müsbət olmaqla fərqlənən bütün mənəvi keyfiyyətlərini üzə çıxarır. Onun nəsrində həssas yazıçı duyumu, psixoloji vəziyyətlərin real və canlı təsviri yüksək təsir bağışlayır, situasiya və şərait əsas tutulmaqla insanın psixoloji aləmi düzgün təhlil olunur. Psixologizmin dərinliyi yazıçının təsvir və təhkiyəsinin ən mühüm özəl əlamətlərindəndir.

Seyran Səxavət ədəbiyyat aləminə şeirlə qədəm qoymuş, “Adalar” və “Mənim planetim” adlı iki şeir kitabı nəşr olunduqdan sonra nəsr yazmağa başlamışdır. İranda tərcüməçi işləyərkən “Hamı elə bilirdi” adlı ilk hekayəsini yazmış və nəşr olunmaq üçün Bakıya göndərmişdir. Hekayə “Ədəbiyyat” qəzetinin Üzeyir bəy Hacıbəyliyə həsr olunmuş yubiley nömrəsində çap olunmuşdur. Ramiz Rövşən bu hekayəyə yüksək qiymət verərək Seyran Səxavəti dünya şöhrətli Amerika yazıçısı Folknerlə müqayisə etmişdir. Bu hekayə müəyyən mənada avtobioqrafik səciyyə daşıyır, müəllifin babası Bəylər kişi və onun müasirləri hekayənin əsas obrazlarıdır. Seyran Səxavətin ilk hekayələr kitabı da məhz bu hekayənin adı ilə “Hamı elə bilirdi” adlanır. Bu kitab 1979-cu ildə Bakıda çap olunmuşdur. Kitaba yazıçının “Hamı elə bilirdi”, “Çayçı Rəşid”, “Alça çiçəyi”, “Toy havası”, “Ət taxtası”, “Dəyirmanın boğazında”, “Parovozsürən” hekayələri və “Ağrı” povesti daxil edilmişdir. Bu əsərlər onlardakı obrazlar canlılığı və avtobioqrafik məzmunu ilə diqqəti çəkməkdədir. Müsahibələrinin birində də yazıçı qeyd edir ki, yaratdığı obrazların yarıdan çoxu həyati adamlardı, qələmə aldığı, təsvir etdiyi hadisələrin çoxu öz yaşantılarıdı, həyatının müəyyən fraqmentləridi.

Obrazların mənəvi-əxlaqi portretini yaratmaq, hadisə və situasiyaları müfəssəl şəkildə, təfərrüatı ilə təsvir etmək povest və romana nisbətən hekayə üçün daha çətindir. “Hekayə nəsrin desant janrı olduğu üçün” burada intellekt, elm və savaddan başqa kamil və xüsusi fitri istedad, obrazlı təfəkkür mühüm rol oynayır. Seyran Səxavət dərin müşahidə və axtarışlarının, yaradıcılıq təcrübəsinin, kamil bədii ümumiləşdirmələrinin, zəngin mütaliəsinin, elmi təfəkkürünün, dərin bədii təxəyyülünün, cilalanmış və formalaşmış bədii dil və üslubunun köməyi ilə kiçik hekayə janrına, povest və romanlarda olduğu qədər bədii həyat materialı yerləşdirə bilir. Yazıçı həm də bunu oxucuların tam məmnun qalacağı bir formada, onları duymağa, düşünməyə, nəticə çıxarmağa

sövq etmək, onlarda təbii, səmimi hisslər oyatmaq, hər bir əsərin gələcək taleyini düşünmək, yazıçı şəxsiyyətini qorumaq şərti ilə həyata keçirir.

Seyran Səxavətin hekayələrinin başlıca mövzusu insanın mənəvi-əxlaqi kamilləşməsi, ruhən təmizlənməsi, günahlarını və səhvlərini dərindən dərk edib durulması, saflaşmasıdır. Onun əsərləri dil, üslub, sənətkarlıq, həm də poetik prinsip baxımından orijinallığı ilə seçilir.

Fərdilik və fərqlilik, özünəməxsusluq Seyran Səxavətin yaradıcılığının əsas məziyyətləridir. Yazıçının hekayələrində müraciət etdiyi mövzular ilk baxışda sa-də, adi görünsə də, dərin bədii məzmunu, daşıdığı məna yükü, bədii sambalı, ədəbi tutumu, zəngin təsir gücü, yüksək sənətkarlığı, səmimi və inandırıcı təqdimatı həmin hekayələri həqiqi sənət nümunəsi səviyyəsinə yüksəltmişdir.

Qeyd etdiyimiz kimi, Seyran Səxavətin hekayələrinin böyük əksəriyyəti avtobioqrafik məzmunu ilə diqqəti çəkməkdədir. Məqalənin əvvəlində haqqında bəhs etdiyimiz "Hamı elə bilirdi" hekayəsi avtobioqrafizmi, maraqlı təhkiyə tərzi ilə yadda qalır. "Toy havası" hekayəsində də Əhmədin başına gələn hadisələr müəllifin öz yaşadıqları ilə yaxından səsləşir. Hekayədə hadisələr Əhməd –Məhəbbət xətti üzrə inkişaf etdirilir. Yazıçı bu uğurlu inkişaf xətti vasitəsilə hekayənin həyat materialını, hadisə, əhvalat və situasiyaların xarakterini yüksək bədiiliklə şərh edir. Hekayədə Əhməd və Məhəbbətin özündən çox daxili yaşantıları, onların məhəbbət, sədaqət və etibarla dolu həyəcanları, mənəvi-ruhi hiss və duyğuları iştirak edir, obrazlaşır.

Seyran Səxavətin bütün əsərlərində xalqımızın məişəti ilə bağlı çox gözəl əxlaqi, ibrətamiz ailə ənənələri öz əksini tapır. "Toy havası"nda da yazıçı kiçik hekayə vasitəsi ilə çox böyük mətləbləri ortaya qoyur, mənəvi-əxlaqi məsələri diqqətə çatdırır, tərbiyəvi məqamları ön plana çəkir. Bu mənada Əhmədin ali məktəbə daxil olduğu xəbərini atasıgilə vermək üçün sevincək kəndə getdiyi epizod çox ibrətamizdir. "Əhməd qatara mindi. Qatar uça-uça getməli idi. Ancaq ağır-ağır, dayana-dayana gəlib yetişdi. Əhməd axırıncı beş manatını verib taksiyə yetişdi. "Volqa" uça-uça getməli idi. Ancaq o da öz sürəti ilə gəlib Əhmədgilin evinə çatdı. Sürücünün nə vecinə ki, Zülfüqar oğlu Əhməd universitetə girib. Bir də ki, sürücü hardan biləydi ki... Axı Əhməd heç kəsə bir söz demirdi. O "Universitetə girmişəm" kəlməsini ilk dəfə onu oğulluqdan çıxaran atasına demək istəyirdi.

Əhməd dəmir darvazanı  açmaq istədi. Gecə saat iki idi, qapı da bağlı. O, kitabla dolu əl çantasını həyətlərinə atdı, dırmaşıb hasardan aşdı, pillələrlə ikinci mərtəbəyə qalxdı. Atası eyvanda şirin-şirin yatmışdı. Ehmalca qapını açdı, ayağının ucu ilə yeriyib işığı yandıran kimi atası yuxudan ayıldı, qalxıb oturdu. Baxıb Əhmədi gördü. Əhməd atasının üzündə bir yazıqlıq hiss elədi. Bunu da hiss elədi ki, atası soruşmağa ürək eləmir. döş cibindən tələbə biletini çıxarıb ehtiyatla atasına uzatdı. Atası ayağa durdu. Əhməd ömründə birinci dəfə idi ki, atasını alt paltarda görürdü" (10, 58).

Bu epizod həcmcə kiçik olsa da, çox böyük məna yükü daşıyır. Valideyn – övlad arasında qorunub – saxlanan “hörmət pərdəsi”ni əks etdirən bu parçada həm də ailələrimizdəki yazılmamış əxlaq qanunları öz aydın təzahürünü tapır.

Hekayədə Əhmədlə Məhəbbətin bir-birinə bəslədiyi saf sevgi müəllifin dilindən son dərəcə səmimi və pafossuz ifadə olunur: “Əhməd Məhəbbəti sevirdi. Birinci dəfə idi ki, onunla təklikdə söhbət edirdi. Hər dəfə qəzet müzakirəsində qaçana-tutana macal verməyən Əhməd bu gün hələ fərli-başlı bir söz deməmişdi. Məhəbbət hər dəfə Əhmədlə rastlaşanda elə bil baxtını görürdü. Ona elə gəlirdi ki, Əhməd onun alnına yazılıb və onlar qoşa qarımalıdırlar” (10, 61).

... Onların ürəkləri bir çırpırdı. Hər ikisinin gözləri çoxdan əhd-peyman bağlamışdı, sadəcə olaraq bundan xəbərləri yox idi... (10, 63)

Yazıçının təsvir və təhkiyəsi o qədər aydın, rəvan və axıcıdır ki, oxucu təsvir olunan həmin hadisələrin təsirindən uzun müddət çıxa bilmir. Müəllif obrazların mənəvi-ruhi aləmini, psixologiyasını, daxili narahatçılıqlarını, sevinc və həyəcanlarını, bu günə qədərki yaşantılarını onların daxili nitqi vasitəsilə açır.

Seyran Səxavətin maraqlı hekayələrindən biri də “Ət taxtası”dır. “Ət taxtası” hekayəsində yazıçı cəmiyyətdəki nöqsanların və xəstə təfəkkürlü insanların islahına çalışır. Hekayədə əsas surət Tofiq adlı, yüksək əxlaqlı, nəcib bir insandır. O, cavan yaşında dünyasını dəyişən mühəndis dostunun həyat yoldaşını və övladlarını öz evinə qonaq çağırıb. Özü isə onları qarşılamağa gedib. Qonaqları gözləyərkən Tofiq Məmmədtağı adlı bir həpəndə rast gəlir. Məmmədtağı orda öz “canan”ını gözləyir və elə düşünür ki, gecənin bu vədəsi hamı onun kimi “canan” ovuna çıxıb. O, Tofiqə tez-tez sataşır, “səninki də gecikir” və s. kimi eyhamlı sözlər deyir. Tofiq qətiyyən ona fikir vermir. O, yaxşı başa düşür ki, bu cür əxlaqsız insanlar hamını öz arşınları ilə ölçür. Bir azdan Məmmədtağının maşınına yüngül əxlaqlı bir qadın yaxınlaşır. Tofiq onların söhbətlərindən başa düşür ki, həmin qadın evdə öz halalca ərini və doğma övladlarını aldadaraq Məmmədtağı ilə görüşə gəlmişdir. Bir azdan Tofiqin gözlədiyi qonaqları – mərhum mühəndis dostunun həyat yoldaşı və onun iki oğlu gəlib çıxır: “Tofiq oğlanları bağrına basdı. Bu dəfə Məmmədtağının yanında əyləşən qadın dilləndi: Görürsən, cananının uşaqlarını necə istəyir. Bəxtəvər yarıyanların başına.

Tofiq onları maşına əyləşdirdi. Dostunun həyat yoldaşı ərinin ölümündən sonra qara paltarı əynindən çıxartmamış, oturub yetimlərini böyütmüşdü, evdə qadın olmuşdu, çöldə kişi (10, 76). Yazıçı əxlaq baxımından bir-birindən kəskin şəkildə fərqlənən bu iki qadın obrazını yaratmaqla cəmiyyətdəki əxlaqi naqislikləri, çatışmazlıqları tənqid edir.

Cəmiyyətdə Tofiq kimi mərd, sədaqətli, etibarlı insanların az da olsa varlığı müəllifi sevindirir. “Dostunun oğlanları Tofiqə əmi deyirdilər, oğlanlarına isə əmioğlu. Əmioğlular qucaqlaşdılar. Cavanlıqda Tofiq öz dostu ilə belə qucaqlaşardı. Dostunun oğluna baxdı, atasını gördü. Əmioğullar Moskva Uni-

versitetində oxu-yurdular, ikisi də birinci kursda. Dostunun ölümündən sonra Tofiq heç vaxt onun ailəsini tək qoymurdu. Bayramlarda, əziz günlərdə həmişə gedib onlara dəyirdi. Dostunun ölümünə həsr etdiyi şeirdən aldığı pulla onun kiçik oğluna hədiyyə alanda dostunun arvadı ağlamışdı. Tofiq də dözə bilməmişdi, o da ağlamışdı" (10, 75-76).

Əsərin məhz "Ət taxtası" adlandırılması da rəmzi səciyyə daşıyır. "Tofiqin yadına yenə Məmmədtağı düşdü. Gözü stola bərkidilmiş ətçəkən maşına sataşdı. Belə alçaqları, belə qudurmuşları gərək bu ət maşınından keçirdəsən...",-deyə düşündü. ... "O gecə səhərəcən Tofiq yuxusunda bir neçə dəfə mühəndis dostunu gördü. O, Məmmədtağını bir neçə dəfə qolları bağlı vəziyyətdə gətirib Tofiqə verdi. Tofiq də Məmmədtağını bir neçə dəfə ət maşınında çəkdi" (10, 77). Hekayənin sonluğunu oxuyanda onun niyə məhz "Ət taxtası" adlanması bizimçün aydınlaşır. Bu hekayədə həm mövzu, hadisə, vəziyyət və əhvalatlar adidir, həm də iştirakçılar azdır. Amma bu adiliyin özündə də güclü bir məna dərinliyi, ağır məna yükü var. Bu hekayəni, o cümlədən Seyran Səxavətin demək olar ki, bütün əsərlərini yaddaqalan edən cəhətlərdən biri də yüksək bədii dil və sənətkarlıqla, sirayətedici üslubda təqdim olunmasıdır.

Yazıçı hekayələrində həyatın, yaşadığı illərin estetik şərhini verir. "Yeddi-parada heç kəsin qəlbinə dəymədiyi", "Allahın bədbəxt bəndəsi hesab etdiyi" Dadaşın başına gələn hadisələrdən bəhs edən "Alça çiçəyi" də belə hekayə-lərdəndir. Hekayədə hadisə, əhvalat və vəziyyətlərin tamlığı, hissi-idraki məqam-ların ardıcıllığı, bir-birini izləməsi, tamamlaması və bütün bunların yüksək obraz-lılıqla təqdim olunması oxucuda Seyran Səxavətin yüksək nasirlik səviyyəsi, dil-üslub kamilliyi, dərin müşahidə qabiliyyətinin olması ilə bağlı fikir formalaşdırır.

Seyran Səxavətin əsərlərini təhlil edərkən aydın hiss olunur ki, yazıçının möv-qeyi Mirzə Ələkbər Sabirlə yaxından səsləşir. Böyük Sabir kimi Seyran Səxavət də məsələlərə münasibət bildirməkdə sərt və amansızdır. "Paravozsürən", "Dəyir-manın boğazında" hekayələrində yazıçı Zülfəli, Bomba Saleh kimi obrazları danış-dıraraq onların iç üzünü açır və tipi öz dili ilə ifşa edir.

Böyük Sabirlə başlayan tipi öz dili ilə ifşa etmək ənənəsini Seyran Səxavət öz əsəsrlərində uğurla davam etdirir. Sabir tərəqqiyə, milli oyanışa nail olmağın yolunu elmə və təhsilə yiyələnməkdə, özünüdərketmədə, dünya işlərindən baş çıxarmaqda görür. Buna görədir ki, M.Ə.Sabirin yaradıcılığında məktəbə, maarifə, elmə, təhsilə köhnəpərəst münasibətin sərt tənqidi mühüm yer tutur. "Bilməm nə görübdür bizim oğlan oxumaqda", "Neçin məktəbə rəğbətim olmayır", "Uşaqdır", "Oxutmuram, əl çəkin", "Müəllimlər syezdi" və s. kimi satiralarında elmsizliyin, savadsızlığın bəlaları, məktəbin və təhsilin düşmənlərinin ifşası, yalnız elm öyrənməklə, təhsil almaqla özünüdərkin isbatı kimi öz dövrü üçün aktual olan məsələlərdən söz açmışdır.

Əslində, həmin məsələlər sadəcə Sabirin dövrü üçün aktual deyil. Təəssüflər olsun ki, üstündən uzun illər keçməsinə baxmayaraq bu elmsiz mühit, cəhalət müasir dövrümüzdə hələ də öz aktuallığını qoruyub-saxlamaq-

dadır. Seyran Səxavətin “Paravozsürən” hekayəsinin baş qəhrəmanı Zülfəli də Mirzə Ələkbər Sabirin satiralarının qəhrəmanları kimi məktəbi, maarifi lənətləyir, oxumuş adam görmək istəmir. “Zülfəli riyaziyyat fənnindən olimpiadaya gedən böyük qızına belə müvəffəqiyyət arzulayır: “Get, get, oxuyassan, heç kəs də görmüyəcək. Hara cəhənnəm olub gedirsən, evdə bir işin qulpundan yapış ee, boyunu yerə soxum”. Qızı öz otağına çəkilib ağladı. Oğlu rəssamlıq dərnəyinə gedirdi. Onu da belə həvəsləndirdi: “Get bir sənət öyrən ee, get televiziya, xolodelnik mühəndisi ol, əlqap onlardadı, bəy kimi dolanırlar” (10, 88).

Zülfəli övladlarına bu cür qayğısız və kobud davrandığı kimi gözəl-göyçək, bacarıqlı, səliqəli xanımı Bilula da “Allah deyəndə” xəyanət edir, qonşuda yaşayan, “onun-bunun artığı” Dürdanə ilə “oturub-durur”. Bütün günü damağından “Kazbek” siqareti, əlindən “Ağdam” arağı düşməyən, səhərdən axşama qədər boş, mənasız mövzularda qışqıra-qışqıra danışan, dindirəndə də “Mən paravozsürənəm” deyib döşünə döyən, ailəsinə, övladlarına qayğı göstərməyən, kobud təbiətli bir adam olan Zülfəlinin xarakterindəki naqisliyi, çatışmazlıqları təsvir etməklə yazıçı bir obrazın timsalında bütövlükdə cəmiyyətin əxlaqındakı qüsurları ümumi-ləşdirmiş olur.

Seyran Səxavətin əsərlərini oxuyarkən biz həyatın ziddiyyətlərindən törəyən fərdi-psixoloji və ümumi-ictimai yük daşıyan təzadlar sisteminin, güclü emosiya doğuran epizodların, fikirlə hissin bölünməz vəhdətinin və yazıçının hər addımda oxucunu gözlənilməzlik qarşısında qoya bilmək bacarığının şahidi oluruq.

Seyran Səxavətin nəsrində bir şeiriyyət, şeir duyumluluğu var. Yazıçı bəzən mürəkkəb, hətta mücərrəd görünən fikirləri, hissləri belə oxucuya son dərəcə təbii və doğma axarda təqdim edə bilir. Oxuduqca sanki rastlaşdığın hadisələr gözünün önündə kino lenti kimi canlanır, obrazların fikir, düşüncə, istək və əzab aləmləri oxucuya aydın şəkildə təqdim olunur. Bu mənada, biz Seyran Səxavətin bədii nəsrində qəhrəmanların mənəvi dünyasını, bu dünyanın içini görür, obrazın ruhani varlığı ilə qarşılaşırıq.

Obrazın ən qəribə ruhi vəziyyətini, psixologiyasını aydınlaşdırmaq, onu müxtəlif paradokslarla qarşılaşdırmaq, fərdi özəlliklərlə ümumbəşəri ahəngin ayrılmaz vəhdətini fəlsəfi-psixoloji aspektdə təhlil etməyə can atmaq ən qədim miflərdən tutmuş, yüksək inkişaf mərhələsində olan bugünkü ədəbiyyatlara qədər həmişə diqqət mərkəzində olmuşdur. Seyran Səxavət də gerçəkliyin adi və qeyri-adi cəhətlərini götürür, öz qəhrəmanını qəribə daxili və xarici vəziyyətlərə salır və olduqca qüvvətli sirayətediciliklə, oxucunu heyrətləndirən doğruluqla insanın ruhi vəziyyəti haqqında danışır.

Fərd və cəmiyyət, insan və dünya, əxlaq və mənəviyyatsızlıq problemi Seyran Səxavətin nəsrində konkret hissi formalarda öz bədii təcəssümünü tapmışdır. Əsərlərində ümumən bir genişlik, çoxqatlılıq və epiklik duyulur. Onun hekayələrində mənəvi-əxlaqi məsələlərin işıqlı mövqelərdən maraqlı həllinə və insan xarakterlərinin orijinal boyalarla təsvirinə rast gəlirik. Hekayə-

lərinin dili xalq danışıq dilində olduğu qədər canlı və anlaşıqlı, üslubu, sujeti, bədii quruluşu isə olduqca təbii və sadədir.

Yazıçı istər mövzu, problem, istərsə də bədii sənətkarlıq və dil cəhətdən Azərbaycan nəsrinin ən yaxşı ənənələrinə söykənir və onu inkişaf etdirir. Tənqidi-satirik, ironik ifadə tərzinin dərinliyi, dramatizmin qüvvətli yumorla birləşməsi, bədii formanın kamilliyi və zənginliyi Seyran Səxavətin nəsrinin əsas xüsusiyyətləridir. Onun təkcə nəsrinə deyil, ümumilikdə bütün yaradıcılığına xas olan humanizm oxucuda dərin mənəvi aləm formalaşdırır və insanı əxlaqiyə, bütövlüyə, kamilliyə, özünüdərkə yönləndirir.

**ƏDƏBİYYAT**


1. Abasov Abdulla. Həyat və bədii həqiqət, Bakı: Nurlan, 2006, 250 s.
2. Abasov Abdulla. Klassiklərimiz həmişə müasirdir, Bakı: Nurlan, 2009, 230 s.
3. Ədəbiyyatşünaslıq. Ensiklopedik lüğət. Tərtib edəni: Əziz Mirəhmədov, Bakı: “Azərbaycan Ensiklopediyası” Nəşriyyatı Poliqrafiya Birliyi, 1998, 420 s.
4. Ənvəroğlu Himalay. Azərbaycan romanının inkişaf problemləri, Bakı: Nurlan, 2008, 260 s.
5. Hüseynoğlu Tofiq. Söz-tarixin yuvası, Bakı: Azərnəşr, 2000, 256 s.
6. Hüseynoğlu Tofiq. Ədəbiyyatla yaşayıram. Bakı: Azərnəşr, 1993, 190 s.
7. Kazımov Qəzənfər. Sənət düşüncələri, Bakı: Azərbaycan Dövlət Palatası, 1997, 256 s.
8. Müasir Azərbaycan ədəbiyyatı. 2 cilddə, I c., Bakı: BDU, 2007, 502 s.
9. Müasir Azərbaycan ədəbiyyatı. 2 cilddə, I c, Bakı: BDU, 2007, 562 s.
10. Müasir ədəbiyyat məsələləri (məqalələr toplusu). Bakı: Elm və təhsil, 2012, 192 s.
11. Səxavət Seyran. Hamı elə bilirdi... Bakı: Gənclik, 1979, 160 s.
12. Sultanlı Vaqif. Azərbaycan ədəbi tənqidi. Bakı: Elm və təhsil, 2012, 224 s.


## ЧЕЛОВЕК И СОЦИАЛЬНЫЕ ПРОБЛЕМЫ ХУДОЖЕСТВЕННОЙ ЛИТЕРАТУРЫ В КОНТЕКСТЕ МОРАЛЬНО-ЭТИЧЕСКИХ ПОИСКОВ


**Х.З.ЭФЕНДИЕВА**


**РЕЗЮМЕ**


Эта статья говорит о представителе современной азербайджанской прозы Сейрана Сахавата. Он имеет важные заслуги в формировании литературно-художественных и национально-эстетические чувства в азербайджанском обществе. Оригинальность таланта этого писателя, его различных стиля написания, глубокий гуманизм в его работах, философский реализм и психологическая глубина обратил внимание большой массы читателей и литературно-научной общественности. Сейран Сахават является автором романов, рассказов и историй глубокого смысла, посвященные любви к Богу, самореализации и нравственного совершенства, которые заставляют людей глубоко задуматься. В этой статье мы проанализировали истории Сейрана Сахавата автора: "Каждый, известно, что ...», «Свадебное окружение", "Мясное", "Вишневый цвет" и другие в контексте морально-этических поисков. Существует большая область человеческих и социальных проблем в его прозе.



**Ключевые слова:** искусство, проза, роман, человеческие и социальные проблемы, морально-этические исследования, гуманизм

**HUMAN AND SOCİAL PROBLEMS OF LİTERARY FİCTİON İN THE CONTEXT OF MORAL AND ETHİCAL SEARCHES**

**Kh.Z.AFANDİYEVA**

**SUMMARY**

This article deals with the representative of modern Azerbaijani prose, Seyran Sakhavat. He has important services in the formation of literary-artistic and national-aesthetical sense in the Azerbaijani society. The originality of the writer's talent, his different style of writing, deep humanism in his works, philosophical way, realism and psychological depth drew the attention of a large mass of readers and literary-scientific public. Seyran Sakhavat is the author of novels, tales and stories of deep meaning dedicated to the love for God, self-actualization and moral perfection which make the people think deeply. In this article we analysed Seyran Sakhavat's stories: "Everyone knows that…", "Wedding ambiance", "Meat board", "Cherry blossom" and others in the context of moral and ethical searches. Much attention is given to human and social problems in his fiction.

**Key words:** art, prose, novels, human and social problems, moral and ethical researches, humanism